Məhəbbət xanım, salamlar...
Çox dəyərli ədəbi esseyə görə səni təbrik edirəm...
Kaş on belə istedadla işlənmiş yazın olaydı... kitab çap etmək olardı... digər 9 yazını kim baqda yazmağın öz işindir.
Bu yazı sənin mənəvi mühitini kifayət qədər parlaqlığı ilə göstərir.
Bəli, sənə də əhsən...
Sağlam zəka və zehin...
Bu hökm sənin ziyalı kimliyinin möhürüdür...
İncimə, mən də nə yaza biləcəyinə inam sarıdan yarı güvən idim... Bir yazı ilə mənə qəti inam bəxş etdin...
Onu da deyim ki, mən zəka söhbəti üçün tərəfdaş acılığı çəkirəm... yazısında, söhbətində işıq gördüyüm adamlar həmişə məni cazibəsinə alır... işıqdan kim qaçar. Hələ sənin Xalq Şairi Zəlimxan Yaquba həsr olunmuş "Mən fələkdən gileyliyəm" qəsidə-poemamla bağlı bir neçə cümləlik təəssüratını da yada salmaq istərdim. Burada da sözə həssas münasibətin bütün mətn boyu özünü diktə edir: *"Salam, Əli Rza müəllim, ikihissəli "Mən fələkdən gileyliyəm" qəsidəsini gec də olsa, oxudum. Əsərdə Xələflinin dostu, yaxını, sirdaşı olan Zəlimxan Yaqubun ölümündən duyduğu kədər, keçirdiyi böyük sarsıntı əks olunub. İstedadlı söz ustasının dünyadan köçüşünü Xələfli qloballaşdırır. O taylı-bu taylı Azərbaycanın, Şəhriyar yurdunun, Borçalı elinin kədərinə çevirir. Yerin, göyün də həyatdan vaxtsız gedən, yazıb yaratdıqları ilə əbədilik qazanan bir insana göz yaşını tökdüyünü söyləyir:*
*Məkan ağlar, zaman ağlar, Zal oğlunun qələmində,*
*Doqquz fələk məclisini göy üzündə quran ağlar.*

# SÖZÜN YAŞARI ÜZÜNƏ SEVGİLƏRLƏ,

***yaxud Əməkdar müəllim Möhübbət İbrahimovaya (Məhəbbət Şəkili) qısa cavab qeydlərim...***

*Sözünün köməyi ilə qəlbinin yanğısına, ürəyinin göynərtisinə məlhəm olmaq istəyir. Zəlimxanın şəxsində çox korifeyləri yad edir. Bununla sanki özünə, sonsuz kədərinə, qəminə təskinlik vermək ehtiyacı duyur. Bu əsər Z.Yaqub ruhuna göz yaşı, qəlb ağrısı, sonsuz kədərlə, eyni zamanda da böyük ehtiram əə sayğıyla qələmə alınmış ağrılı bir elegiya təsiri bağışlayır. Hər yazısı ilə oxucusunu heyrətləndirməyi, düşündürməyi bacaran şair-publisist Əli Rza müəllim bu qəsidəsilə unudulmaz dostuna sözün gücü ilə bir abidə ucaltmış oldu. Bu, "Mən fələkdən gileyliyəm" abidəsidir. **M.İbrahimova"**.* Bəli, bu mətn özü sənin ədəbiyyat sevgin haqqında hər şeyi deyir. Kaş sözə qayıdışın bundan sonra da davamlı ola.
Möhübbət xanım, tələbəlik vaxtından bəri sənin mənəvi təkamülünlə bağlı heç bir təsəvvürüm olmayıb. Sevinirəm ki, pedaqoji sahədəki uğurların dövlət səviyyəsində yüksək dəyər alıb, Əməkdar müəllimsən. Görünür, bədii sözə, ədəbi sözə sevgi hisslərin yaşarılığını ruhunda, varlığında qoruyub saxlayıb. "Ölməyən sevginin dastanı" haqqında yazdığın qeydlər bunu bir daha təsdiq edir. Elə həmin əsərdən bir parçanı Əməkdar Mədəniyyət işçisi, Zaqatala rayonunda yaşayan Dürdanə Əmrahlı qiraətlə oxumuşdu. Həmin ədəbi parçanı dinləmisən və yenə də sözə səmimi, xüsusi bir ruhsallıqla münasibət bildirmisən.
Deyirlər ki, yazıya pozu yoxdur. Mən də deyirəm ki, əlbəttə, əgər bilərəkdən pozulmursa... Elə bu mənəvi hökmlə sənin dinlədiyin hissə ilə bağlı düşüncələrini də bu məktubuma əlavə edirəm: *"**Sözün ucalığında...** Salam, Əli Rza Xələfli, günün xeyirli olsun. Dürdanənin ifasında səslənən fəxriyyə ruhlu şeirini dinlədim. Şeirin hər sətri bir aforizm təsiri bağışlayır. Sanki şeiri yazmırsan,öz-özünlə söhbətləşirsən. Misralar poetik, hisslər səmimidir. Düşündürücüdür. Çox xoşuma gəldi. Şeir bütövlükdə insanlığı əhatə edir. Əllərinə sağlıq. Haçan qələmə almısan? Sənin lirikanın önündə, bəlkə də zirvəsində (mən oxuduqlarımın) dayanar. Bənzərsiz məcazlardan yaranan reallıqdır bu şeirdəki fikirlərin... uğurlar... Möhübbət İbrahimova, Əməkdar müəllim".*
Sonda...
Əzizim, səninlə ədəbi söhbətlər mənim üçün zövq qaynağı olardı...
Tənqidlərinə də, əlbəttə əsaslı tənqidlərinə də gözüm üstə yer var...
Məhəbbət xanım, sənin sözlə davranışın da qeyri adi dərəcədə dəqiqdir... söz önündə məsuliyyətinə də söz yoxdur...
Sağ ol...deyilməli (yazılmalı) olanlara gecikmə...
***Sonsuz sayğılarımla:***

***Əli Rza XƏLƏFLİ***
***22.01.2026***